Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

# İnsanları həqiqətə, xoşbəxtliyə, sosial bərabərliyə çağıran yazıçı

Rus yazıçısı Anatoli Rıbakovun 105 illik yubileyi münasibətilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait

Bakı - 2015

Tərtibçi: Təranə Hacıyeva

Redaktor və buraxılışa məsul: Şəhla Qəmbərova

**İnsanları həqiqətə, xoşbəxtliyə, sosial bərabərliyə çağıran yazıçı:** A.Rıbakovun 105 illik yubileyi ilə əlaqədar uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait / tərt. edən T.Hacıyeva; red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası. – Bakı, 2016. – 19 s.

# Tərtibçidən :

Bu vəsait rus ədəbiyyatının görkəmli nümayəndələrindən biri, gənc nəsil üçün bir çox maraqlı əsərlərin müəllifi olan Anatoli Rıbakovun 105 illik yubileyi münasibətilə yazılıb.
Sovet ədəbiyyatında uşaqlar və gənclər üçün yazılmış əsərlərin arasında A.Rıbakovun əsərləri xüsusi yer tutur. Bəlkə də bu əsərlərdən bir çoxu indiki uşaqlar üçün maraq kəsb etməyə, aktual olmaya bilər. Çünki bu əsərlərdə sovet uşaqlarının həyatından olan atributlar – pioner qalstuku, təbil və şeypur marşları altında olan yığıncaqlar, personajların qəti şəkildə "biz" və "onlar"a ayrılması və s. indiki nəsilə yad gələ bilər. Amma bütün bunlarla yanaşı, yazıçının gənc nəsil üçün yazdığı əsərlər həm maraqlı süjet xətti, gözəl dili, həm də keçmiş sovet dövrünün, deməli, öz valideynlərinin, nənə və babalarının həyatı, arzuları və s. haqqında məlumat almaq baxımından, həm də burada təbliğ olunan ədalətin həmişə zəfər çalmasına olan inam, dostluğun dəyəri, cəsurluq və s. keyfiyyətlərə görə hər zaman əhəmiyyətlidir.

Vəsaiti sizə təqdim etməkdə əsas məqsəd maraqlı əsərlərin müəllfi haqqında məlumatları daha da artırmaq, yeni nəsildə bu yazıçı haqqında fikir formalaşdırmaq, əsərlərini oxumağa həvəsləndirməkdir.

Vəsait iki hissədən ibarətdir. Birinci hissədə yazıçının həyat və yaradıcılığı haqqında məlumat verilir. İkinci hissədə isə uşaq kitabxanasında yazıçıya həsr olunmuş tədbirlərdən söhbət açılır.

# I BÖLMƏ

## HƏYAT VƏ YARADICILIĞI



Anatoli Naumoviç Rıbakov (əsl soyadı Aronov) 1(14) yanvar 1911-ci ildə Rusiyanın Çerniqov quberniyasının Derjanovka kəndində milliyyətcə yəhudi olan mühəndis Aron Naumovun ailəsində dünyaya gəlmişdir. 1919-cu ildən 1951-ci ilə qədər Moskvada, Arbat küçəsində yaşayan A.Rıbakov gimnaziyada təhsilini bitirdikdən sonra kimya zavodunda yükdaşıyan, sürücü işlərində çalışır. 1930-cu ildə Moskva Nəqliyyat mühəndisləri institutuna daxil olur. 1933-cü ildə əksinqilabi təbliğatda ittiham olunaraq komsomoldan və institutdan xaric olunur, daha sonra həbs olunaraq 3 il sürgün cəzası ilə məhkum olunur. Sürgünü bitdikdən sonra pasport rejimli şəhərlərdə yaşamaq hüququ olmadığı üçün Rusiyanın müxtəlif yerlərində yaşayır. 1941-ci ildən 1946-cı ilə qədər Qırmızı Orduda xidmət edir. Moskvanın

müdafiəsindən başlayaraq Berlinin alınmasına qədər müxtəlif cəbhələrdəki döyüşlərdə iştirak edir. 1960-cı ildə yazıçı tam bəraət alır.

A.Rıbakov 23 dekabr 1998-cı ildə Nyu-Yorkda vəfat edib. Moskvadakı Kuntsevo qəbiristanlığında dəfn olunub.

Yaradıcılığa 1947-ci ildə yeniyetmələr üçün macəra povestləri "Kortik" (1948) və onun davamı olan "Bürünc quş" (1956) əsərlərini yazmaqla başlamışdır. Hər iki povest ekranlaşdırılmışdır.

Rıbakovun qələmə aldığı ilk roman 1950-ci ildə yazılmış "Sürücülər" romanıdır. Bu əsər yazıçının özünün şəxsən tanıdığı insanlara həsr olunmuşdur. Yazıçının 1955-ci ildə qələmə aldığı "Yekaterina Voronina" romanı böyük uğur qazanır. 1975-ci ildə "Kortik" və "Bürünc quş" əsərlərinin davamı olan "Güllə atışı" povesti işıq üzü görür. 1978-ci ildə nəşr olunan "Ağır qum" romanı Ukraynanın şimalında 1910-1940-cı illərdə müxtəlif millətlərin nümayəndələrinin yaşadığı mühitdə yəhudi ailəsinin həyatı, onillikləri aşan məhəbbət, Xolokost faciəsi və vətəndaş müqavimətindən bəhs edir. Bu əsər ekranlaşdırılmışdır və 2008-ci ildə premyerası olmuşdur.

Yazıçının 1960-cı illərdə qələmə aldığı, lakin yalnız 1987-ci ildə nəşr olunan "Arbat övladları" əsəri 30-cu illər nəslinin taleyi haqqında yazılmış ilk romanlardandır. Burada həmin nəslin böyük itkilər, faciələrlə dolu taleyi əks olunur, totalitar hakimiyyət mexanizmi, "Stalin" fenomeni və stalinizmin mahiyyətinin açılmasına cəhd edilir. 2004-cü ildə "Arbat övladları" əsərinin motivləri əsasında çəkilmiş çoxseriyalı eyniadlı bədii televiziya filmi tamaşaçılara təqdim olunmuşdur.

1988-ci ildə “Arbat övladları”nın davamı olan “Otuz beşinci və digər illər” romanı, 1990-cı ildə “Qorxu”, 1994-cü ildə “Torpaq və kül” əsərləri çap olunmuşdur. Tetralogiyada müəllifin bioqrafiyasının elementlərindən istifadə olunmuşdur (Saşa Pankratov surəti).

1995-ci ildə yazıçının yeddi cilddə seçilmiş əsərləri, 1997-ci ildə isə avtobioqrafik “Roman-xatirələr”i çap olunur. A.Rıbakovun kitabları ümumi tirajı 20 milyon nüsxə olmaqla 52 ölkədə nəşr olunmuşdur. Bir çox əsərləri əvvəldə də qeyd etdiyimiz kimi, ekranlaşdırılmışdır.

A.Rıbakov sovet PEN-mərkəzinin prezidenti (1989-1991), SSRİ Yazıçılar Birliyinin İdarə Heyətinin katibi olmuşdur. “Qırmızı Əmək bayrağı”, “Xalqlar Dostluğu” ordenləri ilə təltif olunmuşdur.

**Görkəmli şəxsiyyətlər Anatoli Rıbakov haqqında:**

“A.Rıbakovun əsərləri vətəndaş və vətəndaşlıq məsuliyyəti hissini tərbiyə edir.”

Ədəbiyyatşünas N.B.İvanova

“Rıbakov yalnız hadisələri təsvir etmirdi, həm də onların faciəvi çıxılmazlığını hiss etdirir və yaşadırdı.”

Ədəbiyyatşünas L.Anninski

“Rıbakov o yazıçılardandır ki, öz daxili həqiqətlərini qoruyub saxlayaraq hakimiyyətlə ümumi dil tapa bilirdi.”

Yazıçı V.Berezin

# II Bölmə

## Yubiley tədbirlərinin keçirilməsi:

Bu il görkəmli rus yazıçısı, uşaqlar, gənclər, həmçinin böyüklər üçün bir çox maraqlı əsərlərin müəllifi Anatoli Naumoviç Rıbakovun 105 illlik yubileyidir.

A.N.Rıbakov gənc nəsil üçün "Kortik", "Bürünc quş", "Kroşun macəraları" və onun davamı olan "”Kroşun tətilləri", "Naməlum əsgər" və s. povestlərin müəllifidir. Yazıçının əsərlərinin əksəriyyəti ekranlaşdırılmışdır.

Yazıçının yubileyi ilə əlaqədar F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da bir sıra tədbirlərin keçirilməsi planlaşdırılır. Bunun üçün kitabxanada kitab sərgisi təşkil edilir. Bu sərgidə yazıçının müxtəlif illərdə həm rus, həm də Azərbaycan dillərində çap olunmuş kitablarından istifadə olunması vacibdir. Sərgi müxtəlif başlıqlar altında qurula bilər. Məsələn: "Anatoli Rıbakov – 105", "Sovet uşaq ədəbiyyatının görkəmli siması", "Məhəbbət dünyanı ram edir", "Hər şey bağışlanır, lakin günahsız qan tökənlər heç vaxt bağışlanmayacaq" və s.

İndi isə "Anatoli Rıbakov – 105" adlı sərginin nümunəsini veririk.

Başlıq:

1. "Anatoli Rıbakov – 105";
2. Anatoli Rıbakovun portreti;
3. Kitablarının nümayişi;
4. Görkəmli şəxsiyyətlərin Anatli Rıbakov haqqında fikirləri.

*Yazıçının özünün sitatlarından da istifadə etmək olar. Sitatlardan bir neçəsini təqdim edirik:*

İnsanın hansı vəziyyətə düşməsi əsas deyil, bu çox zaman ondan asılı olmur. Məsələ insanın o vəziyyətdən necə çıxmasındadır, - bu hər zaman onun özündən asılıdır.

Mükəmməl cəmiyyət haqqında hər cür ideya – illüziyadır.

Gəncliyin öz hüquqları var. Onun birinci hüququ gülməkdir.

İnsanları sürgünə göndərərək bununla onları sındıra bildiklərini düşünərək yanılırlar. Öldürmək olar, sındırmaq yox.

Hər bir insan özünəməxsus gözəlliyə malikdir. Lakin heç də hər kəs öz gözəlliyini əyani şəkildə göstərə bilmir.

Ümidsiz vəziyyətlər yoxdur, ümidsizliyə qapılmış insanlar var.

Artıq söz danışmaqdan qorxduğun zaman, əsas sözü də deməyəcəksən.

## Kitablarının nümayişi:













АНАТОЛИЙ РЫБАКОВ
ПРИКЛЮЧЕНИЯ КРОША


АНАТОЛИЙ РЫБАКОВ
Бронзовая птица


КОРТИК - БРОНЗОВАЯ ПТИЦА
ВСЕМИРНАЯ ДЕТСКАЯ КЛАССИКА


АНАТОЛИЙ РЫБАКОВ

Kitabxanada keçirilən tədbirlərdən biri də sual-cavab gecəsidir.

**Kitabxanaçı:** Anatoli Rıbakovun neçənci ildə anadan olduğunu deyə bilərsinizmi?

**Oxucu:** 1 yanvar 1911-ci ildə.

**Kitabxanaçı:** Yazıçının hansı əsərlərini tanıyırsınız?

**I Oxucu:** Anatoli Rıbakov 1947-ci ildə yaradıcılığa uşaq və yeniyetmələr üçün macəra əsərləri yazmaqla başlamışdır. 1948-ci ildə yazıçının "Kortik" povesti, 1956-cı ildə isə onun davamı olan "Bürünc quş" romanı işıq üzü görüb. Hər iki əsər ekranlaşdırılıb. "Kortik" filmi 1954-cü ildə (təkrarən 1973-cü ildə), "Bürünc quş" – 1974-cü ildə.

**II Oxucu:** Yazıçının yenə də yeniyetmələr üçün yazdığı "Kroşun macəraları" (1960) və bu əsərin davamı olan - "Kroşun tətilləri" (1966) və "Naməlum əsgər" (1970) povestləri. Bu povestlər də ekranlaşdırılmışdır. "Kroşun macəraları" – 1961-ci ildə, "Kroşun tətilləri" – 1979-cu ildə və nəhayət, "Naməlum əsgər" – 1984-cü ildə.

**I Oxucu:** Sonrakı illərdə A.Rıbakov "Sürücülər", "Ağır qum", "Arbat övladları" və digər əsərlərini də yazmışdır.

## KİTAB MÜZAKİRƏSİ:

Kitabxanada keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Anatoli Rıbakovun əsərləri çox maraqlı, oxunaqlı olduğu üçün, onun kitablarının müzakirəsini keçirmək məqsədəuyğundur.

Yazıçının yuxarı sinif şagirdləri üçün qələmə aldığı əsərlərdən biri də "Bürünc quş" povestidir. Əsər "Kortik"

povestinin davamıdır və əsərdə baş verən hadisələr "Kortik"dəki qəhrəmanların ətrafında cərəyan edir.

Uşaq və yeniyetmələr üçün yazılan əksər əsərlərdə olduğu kimi burada da əsasən xeyir və şərin, yaxşı insanlarla pis insanların mübarizəsi süjet xəttinin əsasını təşkil edir.

**Kitabxanaçi:** Anatoli Rıbakovun "Bürünc quş" povesti əfsanəvi uşaq trilleri "Kortik" – "Bürünc quş" – "Atəş" trilogiyasının II kitabıdır. Kitabın tarixi fonu sovet hakimiyyətinin ilk illəri, vətəndaş müharibəsi, Povoljyedə baş verən aclıq, uşaqların tərbiyədən kənar qalması ilə mübarizə kimi məsələlər haqqındadır. Əsərin qəhrəmanları pionerlər Mişa Polyakov və onun dostları Genka Petrov və Slava Eldarov tərəfindən zadəgan qraf Karaqayevin mülkündəki bürünc quş heykəlinin sirrinin açılması, qətldə ittiham olunan Nikolay Rıbalinin günahsızlığını sübuta yetirməyə və qraf Karaqayevi ifşa etməyə kömək edir. Bu əsər bir çox dillərə tərcümə olunmuşdur. Onun əsasında çəkilmiş eyniadlı film isə 1974-cü ildə ekranlara çıxmışdır. Uşaqlar, indi deyin görək siz bu qəhrəmanları hansısa əsərdən tanıya bildinizmi?

**I Oxucu:** Bəli, yazıçının "Kortik" əsərindən. Bu əsərdə də "Kortik" povestindən tanıdığımız pioner Mişa Polyakov əsas qəhrəmandır. O, öz dostları ilə birlikdə yeni macəralara atılır, yenə də öz iti ağlı və cəsurluğu sayəsində yeni bir cinayətin üstünü açır.

**Kitabxanaçı:** Mişa bu əsərdə hansı ictimai vəzifəni yerinə yetirir?

**I Oxucu:** Mişanı pioner dəstəsinin rəhbəri təyin ediblər. Çünki dəstənin əvvəlki rəhbəri orduya xidmətə gedib.

**Kitabxanaçı:** Hadisələr necə cərəyan edir? Bürunc quş heykəli bu povestdə hansı rolu oynayır?
**II Oxucu:** Pioner dəstəsinin düşərgəsi qraf Karaqayevin malikanəsinin qarşısında qurulub. Bu malikanənin girişində böyük bürünc quş heykəli var. Əslində, bu heykəl adi bir heykəl deyil, bütün hadisələrin açarıdır. Evin "qrafinya" adlandırılan bir baxıcısı var. Uşaq evinin direktoru Boris Sergeyeviç malikanədə əmək kommunası yaratmaq istəyir. Lakin həmin qadın heç kimi evə yaxın buraxmır.
**Kitabxanaçı:** Malikanənin və bürünc quşun sirrinin açılmasına hansı hadisələr səbəb olur?
**I Oxucu:** Mişa işləri ilə bağlı Moskvadan qayıtdıqda bir neçə məktəblinin itdiyini öyrənir. Kənddə pioner dəstəsi qurub savadsızlığı ləğv etmək istəyən Mişa burada Jerdyay ləqəbli Vaska Rıbalin və onun böyük qardaşı Nikolayla tanış olur. Nikolay müxtəlif hekayələr, o cümlədən Qolıgin tirləri haqqında danışır. Guya bataqlığa düzülmüş bu tirlərin altında qraf Karaqayevlərdən biri oğlu ilə birgə dəfn olunub. Kənddə bununla bağlı müxtəlif əfsanələr dolaşır.
**II Oxucu:** Daha sonra kənddə Kuzmin adlı kəndli öldürülür. O, sonuncu dəfə Nikolayla birgə görüldüyü üçün onun ölümündə Nikolaydan şübhələnərək onu həbs edirlər. Mişa öyrənir ki, itmiş məktəblilər çaydan sal vasitəsilə üzərək qaçıblar və dostları ilə birgə onları axtarmağa çıxır. Onlar qayıqla çayı üzüb keçərək qayıq stansiyasına çatır və burada "qrafinya", kulak Yarofeyev və qayıqçını görürlər. Onlar qayıqçını izləyir və onun meşədə iri kisələrdə nə isə gizlətdiyinin şahidi olurlar. Mişa uşaqları qonşu kənddə tapır. O, düşərgəyə gələn müstəntiqə "qrafinya", qayıqçı və özünün şübhələri haqqında danışır. Lakin müstəntiqin ona

inanmadığını görən Mişa özü təhqiqat aparmağı qərara alır və Karaqayevlər haqqında məlumat toplamaq üçün uşaqlardan birini kitabxanaya göndərir. Özü isə Jerdyaydan xahiş edir ki, onu gecə Qolıgin tirlərinə aparsın. Gecə bura gələn uşaqlar yeni qazılmış xəndəklər görürlər. Uşaqlar "Qrafinya" və qayıqçını yerli diyarşünaslıq muzeyinə girərkən görürlər və bundan şübhələnərək muzeyə baş çəkirlər. Burada malikanədəki bürünc quşun kiçik surətini görürlər. Quş fiqurunda gizli yerin oldugu onlara məlum olur.

**Kitabxanaçı:** Uşaqlar sirri açmaq üçün nə edirlər?

**I Oxucu:** Onlar yenidən muzeyə gəlib, fiqurun gizlin yerini tapmaq istəyirlər. Amma onlar nə qədər çalışsalar da bunu öyrənə bilmirlər. Növbəti gün muzeydə istirahət günü olur və dostlar muzeydə gecələməli olurlar. Səhər onlar muzeyə axsayan bir adamın daxil olduğunu görürlər. Gizlənib onun nə edəcəyini izləyən uşaqlar, həmin adamın quşun gözlərinə basıb gizlin yeri açdığını və ora məktub qoyduğunu görürlər. Naməlum adam getdikdən sonra uşaqlar gizlin yeri açır və oradakı kağızı götürüb oxuyurlar. Orada həmin şəxsin çərşənbə günü malikanəyə gələcəyi bildirilir. Uşaqlar düşünürlər ki, əgər kiçik fiqurda belə xəlvət yer varsa, böyük quşda da belə yer ola bilər. Malikanəyə gələn dostlar buradakı bürünc quş heykəlində də həqiqətən belə bir yer tapırlar. Həmin xəlvət yerdən sxem tapan dostlar onun köməyi ilə qrafın xəzinəsini tapacaqlarına ümid edirlər.

Daha sonra uşaqlar qrafinyanın axsayan şəxslə görüşdüyünü görürlər. Onların söhbətindən uşaqlar anlayırlar ki, bu şəxs qraf Aleksey Karaqayevdir. Kuzmini də məhz o öldürmüşdür. Söhbət nəticəsində uşaqlar

öyrənirlər ki, bu iki şəxs qayalıqda görüşəcəklər. Uşaqlar xəzinənin həmin qayalıqda gizlədildiyini təxmin edirlər.
**II Oxucu:** Uşaqlar kömək üçün uşaq evinin direktoruna müraciət edirlər. O isə öz növbəsində kənd sovetinin sədrinə xəbər verir və müstəntiqi çağırır. Qayanın yaxınlığına pionerlər, kəndlilər də toplaşırlar. Qayanın başında, daş parçaları arasında qəbir aşkar olunur. Qəbir daşının altındakı dərinlikdə mücrü, onun içində isə ortasında böyük brilyant qaş olan, qiymətli daşlarla bəzədilmiş bəzək sancağı tapılır. Bu an Karaqayev peyda olur və o, mücrünü direktorun əlindən dartıb alır və tapança ilə ətrafdakıları hədələyir. Lakin o qaça bilmir...

Payızda əmək düşərgəsinin sakinləri malikanəyə yerləşirlər. Pionerlər isə vida tonqalı qalayaraq evlərinə dönürlər.
**Kitabxanaçı:** Uşaqlar, siz bu kitabı oxuyarkən özünüz üçün hansı nəticələri çıxardınız?
**I Oxucu:** Mənə belə gəlir ki, bu kitab bizə dostluqda möhkəm, cəsarətli olmağı, çətinliklərdən qorxmamağı öyrədir.
**II Oxucu:** Mən bu kitabdan belə nəticəyə gəldim ki, təklikdə heç nə etmək olmaz. Pis insanlara qalib gəlmək üçün dostlarla birgə hərəkət etmək, birlik vacibdir.

Kitabxanada ədəbi - bədii gecə keçirməklə yazıçını oxuculara daha da yaxından tanıtmaq, sevdirmək olar. Ədəbi – bədii gecə keçirərkən səhnəni yazıçının şəkilləri, zalın divarlarını isə əsərlərindəki obrazların rəsmləri, əsərlərindən sitatlarla bəzəmək məqsədəuyğundur. Yazıçının əsərlərindən ibarət kitab sərgisi tədbiri daha da

maraqlı edir. Zala qonaqlar: yazıçılar, şairlər, müəllimlər, şagirdlər dəvət olunur.

*Əvvəlcədən seçilmiş iki şagird aparıcı kimi səhnəyə çıxırlar. Onlar ədəbi - bədii gecəni açıq elan edərək qonaqları salamlayırlar.*

**I Aparıcı:** Salam hörmətli qonaqlar, tədbir iştirakçıları. Sizləri görkəmli rus yazıçısı, uşaq və yeniyetmələr üçün çox maraqlı əsərlərin müəllifi Anatoli Naumoviç Rıbakovun 105 illik yubiley tədbirində görməyimizə çox şadıq.

**II Aparıcı:** Anatoli Naumoviç Rıbakov 1911-ci il yanvarın 1-də o vaxtkı Rusiya imperiyasının Çerniqov qəsəbəsində mühəndis ailəsində anadan olmuşdur. 1918-ci ildən Moskvada yaşayan gələcək yazıçı burada məktəbi bitirir və Moskva Nəqliyyat Mühəndisləri İnstitutuna daxil olur. Bu illər SSRİ-də Stalinizmin, repressiyaların, qırmızı terrorun yeni başlandığı illər idi. Gənc Anatoli Rıbakov da bu hadisələrdən kənarda qalmır. 1933-cü il noyabrın 5-də onu əksinqilabi təbliğat aparmaqda ittiham edərək institutdan xaric edirlər. Tezliklə o həbs olunur və üç illik sürgünlə cəzalandırılır. Sürgün müddəti bitdikdən sonra ölkənin müxtəlif yerlərində sərgərdan həyatı yaşayan, müxtəlif işlərdə çalışan A.Rıbakov II Dünya müharibəsinin ilk günlərindən orduya çağırılır. Moskvadan Berlinə qədər döyüş yolu keçir və çoxlu orden və medallarla təltif olunur.

Ədəbi yaradıcılığa bir qədər gec, 37 yaşında başlayan A.Rıbakovun ilk əsərləri kiçik yaşlı oxuculara ünvanlanmış macəra povestləridir. “Kortik”, onun davamı olan “Bürünc quş”, “Güllə atışı” povestləri, yeniyetmənin dilindən qələmə alınan “Kroşun macəraları” silsiləsindən olan əsərləri maraqlı süjet xətti, yüksək romantik əhval-

ruhiyyəsi, xeyirxah yumoru ilə bir neçə nəsil gənc oxucuların sevimli əsərləri olmuşdur və bu gün də sevilə-sevilə oxunur. Bu əsərlərin hamısı ekranlaşdırılmışdır.

Sonrakı illərdə yazıçı daha çox böyüklər üçün yazmış olduğu “Sürücülər”, “Yekaterina Voronina”, “Ağır qum”, müəyyən qədər avtobioqrafik olan “Arbat övladları” əsərləri ilə ədəbi mühitə yeni nəfəs gətirmiş, oxucuların diqqətini cəlb etmişdir. Bu əsərlərin hər biri maraqlı, dəyərli olsa da, “Arbat övladları” əsəri ona daha çox şöhrət qazandırmışdır. Yazıçı bu əsəri 50-ci illərin sonunda yazmağa başlamış, 1982-ci ildə bitirmişdir. Əsər ilk dəfə 1987-ci ildə nəşr olunmuşdur. Roman - trilogiyanın digər hissələri 1988, 1990 və 1994-cü illərdə işıq üzü görmüşdür. 2004-cü ildə “Arbat övladları” adlı çoxseriyalı bədii televiziya filmi ekranlara çıxmışdır.

Anatoli Rıbakov SSRİ Yazıçılar İttifaqının idarə heyətinin katibi, sovet Pen-mərkəzinin prezidenti olmuşdur. Onun əsərləri dünyanın 52 ölkəsində 20 milyon nüsxədən çox tirajla nəşr olunmuşdur.

Anatoli Naumoviç Rıbakov 23 dekabr 1998-ci ildə Nyu-Yorkda vəfat etmiş, Moskvada dəfn olunmuşdur.

**II Aparıcı:** Anatoli Rıbakovun uşaqlar və yeniyetmələr üçün yazdığı əsərlərin ən maraqlı tərəfi, özəlliyi ondadır ki, hər yeni əsərlə qəhrəmanlar da böyüyür və hadisələr də məhz onların ətrafında cərəyan edir. Bu baxımdan, yazıçının bir əsərini oxuyan gənc oxucu mütləq digər əsərlərini də oxumağa həvəslənir. Çünki bu əsərlərin süjet xətti çox maraqlıdır, hadisələrin dinamikası yüksələn xətlə inkişaf edir, dili sadə və oxunaqlıdır. Əsas qəhrəman Mişa Polyakov və onun dostları Genka və Slavka qeyri-adi işləri

araşdırırdılar. Arbat küçəsindən olan bu uşaqların yaşadıqlarında yazıçının özünün şəxsi Arbat xatirələri və ədəbi təxəyyülü çox maraqlı şəkildə uzlaşır.

**I Aparıcı:** Görkəmli yazıçının ən böyük ədəbi nailiyyətlərindən biri ağır repressiya illərinin o dövrün gəncliyinin, insanlarının həyatında qoyduğu sağalmaz yaraları, onlara gətirdiyi bəlaları, məhrumiyyətləri çox inandırıcı, realist bir dillə oxuculara çatdırmasıdır. "Arbat övladları" trilogiyası bu faciələrlə dolu dəhşətli dövrün bütöv bir gənc nəslin həyatını necə məhv etdiyini çox inandırıcı, realist bir şəkildə oxuculara çatdırır. Bu əsərdə Stalinin obrazı ilk dəfə oxucuya indiyədək görünməyən tərəfdən təqdim olunur. Roman işıq üzü gördüyü ilk gündən çox böyük səs-küyə səbəb olmuş, ən yüksək tirajla dəfələrlə nəşr olunmuşdur. Bu əsər yazıçıya dünya şöhrəti qazandırmışdır.

İnsanın həyat yolu keşməkeşlərlə, sınaqlarla doludur. Hər bir kəs bu yolda cəsarətlə addımlamaq, sınaqlardan üzüağ çıxmaq üçün mətin, cəsur, dözümlu olmalı, həyatda nə ilə üzləşməsindən asılı olmayaraq ən çətin məqamda belə ləyaqətini, insanlığını, vicdanını itirməməlidir. Anatoli Rıbakovun qəhrəmanları bizə məhz bunu öyrədir. Həyatda insanın qazandığı ən dəyərli varlıqlar onun dostlarıdır. Çətinliklərin sınadığı dostluqlar hər cür maneədən şərəflə çıxa bilir.

**II Aparıcı:** Bu gün biz 105 illik yubileyini qeyd etdiyimiz görkəmli rus yazıçısı Anatoli Rıbakovun əsərlərini oxumaqla keçmişi, ata-babalarımızın uşaqlığını, onların sevərək oxuduğu, onlar əsasında çəkilmiş filmlərə baxaraq böyüdükləri dövrü daha yaxından tanıya bilərik. Bu əsərlər

sovet dövründə yazılsa da, onların aşıladığı hisslər, oxucuda yaratdığı təəssürat hər zaman aktualdır, hər dövrün uşaqlarının tərbiyəsində faydalı ola bilər. Çünki dostluq, mərhəmət, cəsarət və s. kimi elə bəşəri hisslər var ki, onlar haqqında hansı dövrdə yazılmasından asılı olmayaraq bütün zamanlar üçün dəyərlidir. Tədbirin sonunda oxucular A.Rıbakovun "Bürünc quş" əsəri əsasında çəkilmiş filmə tamaşa edə bilərlər.

## A.Rıbakovun əsərlərinə çəkilmiş filmlər:

1. "Ağır qum" – teleserial, 2008-ci il, rej. A.Barşevski, D.Barşevski.
2. "Arbat övladları" – çoxseriyalı bədii televiziya filmi, 2004-cü il, ARK-film, rej. A.Eşlay.
3. "Bazar günü, yeddinin yarısı" – dördseriyalı telefilm, 1988, "Ekran" YB, rej. V.Zobin.
4. "Bir dəqiqəlik sükut" – bədii film, 1971, M.Qorki adına kinostudiya.
5. "Bürünc quş" – üçseriyalı televiziya bədii filmi, 1973-1974-cü illər, "Belarusfilm", rej. N.Kalinin.
6. "Kortik" – tammetrajlı bədii film, 1954, "Lenfilm", rej. V.Vengerov, M.Şveysar.
7. "Kortik" – üçseriyalı televiziya filmi, 1973, "Belarusfilm", rej. N.Kalinin.
8. "Kroşun macəraları" – macəra filmi, 1961, M.Qorki ad. Kinostudiya.
9. "Kroşun tətilləri" – dördseriyalı televiziya filmi, 1979-cu il, "Ekran" YB, rej. Q.Aronov.

10. “Naməlum əsgər” – üçseriyalı televiziya filmi, 1984, “Ekran” YB, rej. Q.Aronov, V.Zobin.
11. “Uşaqlığın son yayı” – üçseriyalı televiziya filmi, 1974, “Belarusfilm”, rej. V.Rubinçik.
12. “Yekaterina Voronina” – bədii film, 1957, M.Qorki ad. Kinostudiya, rej. İ.Annenski.

**İnternetdə:**

- www. google.ru
- www. Livlib.ru

## Ədəbiyyat siyahısı:


1. Əlamətdar və tarixi günlər təqvimi - 2016
2. Rıbakov, A. Arbat övladları. B.: Yazıçı, 1989. – 512 s.
3. Rıbakov, A. Atəş. – Bakı. : Gənclik, 1979. – 212 s.
4. Рыбаков, А. Кортик. Бронзовая птица. Выстрел. М.: Эксмо, 2007. – 640 с.
5. Рыбаков, А. Кортик : Бронзовая птица: Выстрел : Трилогия, 1982. - 446 с.
6. Рыбаков, А. Выстрел : Повест для среднего и старшего возраста, 1976. – 223 с.
7. Рыбаков, А.Н. Водители : Романы и повести. – 1971. – 704 с.
8. Рыбаков, А.Н. Водители – Екатерина Воронина: Романы, 1972. – 445 с.
9. Рыбаков, А.Н. Бронзовая птица : Повести. – 1985. – 432 с.

10. Рыбаков, А.Н. Избранные произведения: В 2-х томах. Том 1. – М.: Художественная Литература, 1978. – 406 с.
11. Рыбаков, А.Н. Избранные произведения: В 2-х томах. Том 2. – М.: Художественная Литература, 1978. – 557 с.
12. Рыбаков, А.Н. Приключения Кроша; Каникулы Кроша; Неизвестный солдат: Повести для среднего и старшего возраста. – М.: Детская литература, 1989. – 446 с.

**Rus yazıçısı Anatoli Rıbakovun 105 illik yubileyi münasibəti ilə respublika uşaq kitabxanaları üçün hazırlanmış metodik vəsait**

**Kompyuter yığımı**
**və dizayn:** ***Təranə Hacıyeva***

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail: childlibbaku@yahoo.com**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş:
Çapa imzalanmışdır:04.02.2016
Tirajı:100
Pulsuz